**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA FİSKAL SİYASƏTİN İQTİSADİ ARTIMA TƏSİRİ

İxtisas: 5301.01 – Daxili fiskal siyasət və dövlət maliyyəsi

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Cavid İlqar oğlu Seyfullalı**

Fəsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi və texnoloji elmlər" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Zahid Fərrux oğlu Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Azim Heydər oğlu Abasov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**İsmayıl Cəfər oğlu Həsənov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: iqtisad elmləri doktoru, professor

______________ **Yaşar Atakişi oğlu Kəlbiyev**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent

______________ **Suqra İnqilab qızı Hümbətova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor

______________ **Nizami Nəcəfqulu oğlu Xudiyev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Neft gəlirlərindən asılılığın azaldılması və qeyri-neft sektorunun inkişafı müstəqillik illərində ölkəmizdə aparılan iqtisadi siyasətin əsas prioritetlərindən biri olmuşdur. Məhz bu siyasət və artan neft gəlirlərindən ədalətli istifadə nəticəsində ölkədə yoxsulluq səviyyəsi 50%-lik həddən 5%-lik səviyyəyə enmiş, əhalinin rifahı və həyat səviyyəsi xeyli yüksəlmiş, iqtisadi inkişafın davamlığını təmin etmək üçün iri həcmli maliyyə ehtiyatları yaradılmış, iqtisadi institutların inkişafı istiqamətində mühüm uğurlar qazanılmış, dövlət büdcəsinin gəlir və xərclərinin dəfələrlə artmasına nail olunmuş, özəl sektorun inkişafı üçün əlverişli mühit formalaşdırılmış, milli sahibkarların yaranması və inkişafı üçün müxtəlif sahələrdə dövlət dəstəyi göstərilmişdir.

Azərbaycan 2000-ci illərin əvvəllərindən başlayaraq artan neft gəlirləri sayəsində sıçrayışlı iqtisadi yüksəliş dövrünü yaşayan ölkələrdən biri olmuşdur. Lakin, təbii resurs ixracının artması ilə bağlı olan makroiqtisadi uğurların dayanıqsızlığı 2014-2015-ci illərdə dünya bazarlarında neftin qiymətinin düşməsi ilə Azərbaycan iqtisadiyyatında maliyyə böhranının başlanmasında özünü daha qabarıq şəkildə göstərmişdir. 2015-ci ildə milli valyutamızın bir-neçə mərhələdə devalvasiyası, ölkənin bank sistemində böhranların başlaması, inflyasiyanın artması və iqtisadi artımın azalması kimi makroiqtisadi proseslər təbii resurslara əsaslanan iqtisadiyyatların dünya bazarlarında baş verən dalğalanmalara nə qədər həssas olduğunu göstərir.

Azərbaycanda dövlət gəlirlərinin, eləcə də ÜDM-in mühüm hissəsinin hələ də neft sektorundan əldə edilməsi qeyri-neft sektorunun inkişafını yaxın gələcəkdə neft hasilatının azalacağı barədə gözləntilər fonunda taleyüklü məsələyə çevirir. Neft gəlirlərinin azalması büdcə gəlirlərinə mənfi təsir göstərməklə qeyri-neft sektorunun dəstəklənməsi üçün nəzərdə tutulan tənzimləmə resurslarını da məhdudlaşdıra bilər. Bununla yanaşı, neft gəlirlərinin azalması iqtisadiyyatın digər sektorları üçün məcmu tələbin daralmasına səbəb olmaqla, həmin sektorlarda dövlətin apardığı

siyasət və sahibkarların səyləri nəticəsində yaradılmış iqtisadi potensialın tənəzzülünə də gətirə bilər.

Ölkəmizin iqtisadi və maliyyə təhlükəsizliyi ilə bağlı olan bu proseslər milli iqtisadiyyatın şaxələnməsi, ticari sektorların iqtisadi artımda və ixracda payının çoxaldılması, qeyri-ticari sektorların dayanıqlığının gücləndirilməsi kimi strateji məsələlərin hələ də aktual olduğunu göstərir.

Fiskal siyasət dövlətin tənzimləmə alətlərindən biri olaraq, qeyd edilən məsələlərin həllində mühüm rol oynayır. Ünvanlılıq, nəticəlilik, səmərəlilik, şəffaflıq və digər tənzimləmə prinsiplərinin tətbiqində üstünlüklərə malik olan fiskal siyasət müasir dövrün iqtisadi çağırışlarının qarşılanmasında müstəsna rol oynaya bilər. Bu kontekstdə, Azərbaycanda fiskal siyasət alətləri ilə iqtisadi artım arasındakı əlaqələrin tədqiqi xüsusi əhəmiyyət kəsb edir.

Fiskal siyasət iqtisadi tsikllərin tənzimlənməsində və iqtisadi artımın dəstəklənməsində uzun müddətdir ki, istifadə edilir. Bu siyasətin nəzəri-metodoloji əsasları iqtisadçı alimlərin diqqət mərkəzində olan ən uzunömürlü mövzulardan biri hesab olunur. Merkantilisitlər idxal və ixracın tənzimlənməsində vergi və gömrük rüsumlarından istifadə məsələlərinə, fiziokratlar və klassik məktəbin nümayəndələri vergilərin funksiyalarına və insanların iqtisadi davranışına təsirinə, neoklassiklər fiskal siyasətin əmtəə bazarlarında makroiqtisadi tarazlığa təsirinə və bu müdaxilənin hədlərinə, institusional məktəbin təmsilçiləri iqtisadiyyatın dövət tənzimlənməsinin, o cümlədən fiskal siyasətin nəticəliyinə və səmərəliyinə təsir edən amillərin tədqiqinə daha çox önəm vermişlər. Keyns və davamçıları dövlətin fiskal siyasət vasitəsilə iqtisadi şəraitə reaksiya verməsini, böhran dövrlərində dövlət xərcləri vasitəsilə məcmu tələbin dəstəklənməsi məsələlərini önə çıxarmışlar.

Ekonometrik metodların geniş tətbiqi ilə aparılan bir sıra tədqiqatlarda fiskal siyasət və onun ayrı-ayrı komponentləri ilə iqtisadi artım arasında əlaqələrin təbiəti barədə əhəmiyyətli nəzəri və empirik nəticələr əldə edilmişdir. Robert Barro dövlət xərclərinin iqtisadi artıma təsirini onun iqtisadiyyatda çəkisi ilə əlaqələndirmiş və

müəyyən nöqtədən sonra büdcə xərclərinin artımının iqtisadi inkişafa mənfi təsir göstərdiyini təsdiqləmişdir.

Milton Fridman, James Buchanan, Paul Krugman, Joseph Stiglitz, Olivier Blanchard, Christina Romer, Dani Rodrik, Rikardo Hausman və başqa iqtisadçıların əldə etdiyi elmi nəticələr fiskal siyasətin iqtisadi proseslərə təsiri barədə nəzəri biliklərin zənginləşdirilməsində xüsusi rol oynamışdır.

Büdcə gəlirləri neft hasilatının həcmindən və qiymətlərindən asılı olan Azərbaycan iqtisadiyyatı özünəməxsus iqtisadi strukturu, institusional təkamülü, təbii-coğrafi və sosial-mədəni xüsusiyyətləri ilə fiskal siyasətlə iqtisadi artım arasında əlaqəni öyrənmək üçün xüsusi maraq kəsb edir. Azərbaycan iqtisadçılarından Əvəz Ələkbərov, Yaşar Kəlbiyev, Saleh Məmmədov, Zahid Məmmədov, Nizami Xudiyev, Elnur Sadıqov, Mirələm Həsənli, Azər Babyev və başqalarının əsərlərində büdcə planlaşdırılması, büdcə kəsrinin və dövət borclarının idarə olunması, büdcə xəzinədarlığı, maliyyə sisteminin rəqəmsallaşması kimi məsələlər geniş tədqiq edilmişdir.

Azərbaycanda fiskal siyasətin ayrı-ayrı komponentləri və makroiqtisadi göstəricilər arasında əlaqələr Yaşar Kəlbiyevin, Fəxri Həsənovun, Xətai Alıyevin, İlqar Seyfullayevin, Ceyhun Abbasovun və başqalarının tədqiqatlarında araşdırılmışdır. Lakin son 20 ildə ölkəmizdə aparılan fiskal siyasətin məhz iqtisadi artıma təsiri baxımından sistemli təhlili aparılmamışdır. Digər tərəfdən, dünya iqtisadiyyatında baş verən təlatümlərin artması, qloballaşma və rəqəmsallaşma kimi proseslər dövlətin fiskal siyasəti qarşısında yeni çağırışları da meydana gətirməkdədir. Bu baxımdan, Azərbaycanda fiskal siyasətin iqtisadi artıma təsirinin tədqiqi həm nəzəri, həm də tətbiqi baxımdan əhəmiyyət kəsb edir və aktuallığı ilə seçilir.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycanda büdcə gəlirləri və xərclərinin iqtisadi artıma təsiri tədqiqatın obyekti, dövlətin fiskal siyasəti nəticəsində yaranan iqtisadi münasibətlər və onların tədqiqinin nəzəri-metodoloji əsasları tədqiqatın predmeti kimi qəbul edilmişdir.

**Tədqiqatın məqsədi.** Fiskal siyasətin iqtisadi artıma təsirinin tədqiqi və bu əsasda Azərbaycanda tətbiq edilən fiskal tənzimləmə

mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi tədqiqatın məqsədi kimi qəbul edilmişdir.

Tədqiqatın məqsədinə çatmaq üçün qarşıya qoyulan vəzifələr aşağıdakılardır:

- fiskal siyasət və iqtisadi artım arasında əlaqələrin tədqiqinin nəzəri-metodoloji əsaslarının ümumiləşdirilməsi;
- dövlət xərcləri və iqtisadi artım arasında xətti və qeyri-xətti əlaqələr üzrə aparılmış empirik tədqiqatların nəticələrinin tədqiqi;
- fiskal siyasət və iqtisadi artım arasında əlaqələrə təsir edən amillərin müəyyən edilməsi;
- Azərbaycanda büdcə gəlirlərinin və xərclərinin, eləcə də onların strukturunun dinamikasının təhlili;
- Azərbaycanda iqtisadi artım, büdcə gəlirləri və xərclər arasındakı əlaqələrin empirik qiymətləndirilməsi;
- neft ixracatçıları olan ölkələrin fiskal siyasətlərinin müqayisəli təhlili;
- Azərbaycanda tətbiq edilən fiskal qaydaların müqayisəli təhlili və onların təkmilləşdirilməsi istiqamətlərinin aşkarlanması;
- fiskal siyasətin ekoloji davamlılıq və yaşıl iqtisadi artım kontekstində təkmilləşdirilməsi.

**Tədqiqat metodları**. Mövzu üzrə formalaşmış nəzəri baza, yerli və xarici iqtisadçı alimlərin apardıqları tədqiqatların nəticələrinin öyrənilməsi tədqiqat strategiyasının formalaşmasına və tətbiq edilən metodların seçilməsinə imkan vermiş, təhlil və ümumiləşdirmələrin aparılması üçün kəmiyyət metodlarından, müqayisəli təhlil, məntiqi ümumiləşdirmə üsullarından geniş istifadə olunmuşdur. Fiskal siyasət dəyişənləri ilə iqtisadi artım arasında xətti və qeyri-xətti əlaqələrin tədqiqində ARDL Bound Testing (Autoregressive Distributed Lag Bounds Testing) metodu tətbiq edilmiş, alınan ekonometrik modellərin keyfiyyəti müvafiq testlərdən istifadə edilməklə yoxlanılmışdır. Bununla yanaşı, dövlət xərclərinin müxtəlif kateqoriyaları ilə iqtisadi artım arasındakı əlaqənin gücünü və istiqamətini müəyyən etmək üçün korrelyasiya təhlili aparılmış, neftlə zəngin ölkələrdə aparılan fiskal siyasətlərin fərqlərinin müəyyən edilməsində standart kənarlaşma kimi statistik göstəricilərə əsaslanan

müqayisəli təhlil metodu tətbiq edilmişdir. Kəmiyyət metodlarının informasiya təminatı üçün beynəlxalq maliyyə qurumlarının, Azərbaycan Respublikasının Dövət Statistika Komitəsinin və Azərbaycan Respublikasının Mərkəzi Bankının məlumat bazalarından, Azərbaycan Respublikasının dövlət büdcəsinin icrası (illər üzrə) barədə Qanunlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. İqtisadi ədəbiyyatda fiskal siyasətin iqtisadi artıma müsbət təsiri ilə yanaşı, mənfi nəticələri də müşahidə edilmişdir. Bəzi hallarda isə fiskal siyasətlə iqtisadi artım arasında əlaqənin əhəmiyyətli olmadığına dair çoxsaylı empirik sübutlar aşkarlanmışdır.
2. Büdcə xərclərinin ÜDM-də payı, dövlət borcları və idarəetmənin keyfiyyəti fiskal siyasətin iqtisadi artımın stimullaşdırılması üçün səmərəliliyinə əhəmiyyətli təsir göstərir.
3. Azərbaycanda sahibkarlığı dəstəkləyən vergi islahatlarının mütəmadi olaraq aparılmasına baxmayaraq, milli iqtisadiyyatın strukturunda qeyri-neft sektorunun dayanıqlı üstünlüyünə nail olunmamışdır. Büdcənin vergi daxilolmalarının iqtisadi artıma gözlənilən mənfi təsiri isə statistik əhəmiyyətli deyil.
4. Azərbaycanda büdcənin iqtisadi fəaliyyət xərcləri ilə iqtisadi artım arasında müsbət korrelyasiya mövcuddur.
5. Azərbaycanda qısamüddətli dövrdə büdcə xərcləri ilə iqtisadi artım arasında mənfi əlaqə mövcuddur və belə əlaqə müəyyən dərəcədə “qarşılıqlı səbəb-nəticə” əlaqəsi ilə izah oluna bilər.
6. Uzunmüddətli perspektivdə Azərbaycanda büdcə xərcləri ilə iqtisadi artım arasında müsbət əlaqə mövcuddur.
7. Tədqiqat dövründə Azərbaycanda büdcə xərcləri ilə iqtisadi artım arasında əlaqənin qeyri-xətti xarakter daşımadığı aşkarlanmışdır.
8. Azərbaycan da daxil olmaqla, ixracı əsasən təbii resurslardan ibarət olan ölkələrdə fiskal siyasətin dəyişkənliyi digər ölkələrlə müqayisədə daha yüksəkdir. Uyğun fiskal qaydalar təbii resurs ixrac edən ölkələrdə fiskal siyasəti sabitləşdirmək üçün effektiv alət ola bilər.

9. Aşağı borclanma Azərbaycanda “qeyri-resurs ilkin balans qaydası” və “qızıl qayda”nın kombinasiyası ilə büdcənin iqtisadi fəaliyyət xərcləri üçün daha çox vəsait ayırmağa imkan verə bilər. İqtisadi fəaliyyət xərclərinin planlaşdırılmasında məhsuldarlıq meyarına və qeyri-neft sektorunun investisiya cəlbediciliyini artıran layihələrə üstünlük verilməsi təklif olunur.
10. Azərbaycanda fiskal siyasətin yaşıl iqtisadi artıma təsiri istiqamətində təkmilləşdirilməsi üçün əsaslandırılmış təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın elmi yeniliyinə** aşağıdakıları aid etmək olar:

1. Büdcə xərclərinin ÜDM-ə nisbəti ilə iqtisadi artım arasında qeyri-xətti tipli əlaqə bir sıra ölkələrdə mövcud olsa da, Azərbaycanda belə əlaqənin mövcudluğunu təsdiq etmək üçün statistik əhəmiyyətli sübutlar aşkarlanmamışdır.
2. “Qarşılıqlı səbəb-nəticə” əlaqəsi qısamüddətli dövr üçün Azərbaycanda büdcə xərcləri ilə iqtisadi artım arasında mənfi əlaqəni meydana gətirir və bu faktın mövcudluğu Azərbaycanda fiskal siyasətin kontrtsiklik olduğunu göstərir.
3. Azərbaycanda büdcə xərcləri uzunmüddətli perspektivdə iqtisadi artıma müsbət təsir göstərir. Bu müsbət əlaqə yaxın onilliklərdə neft gəlirlərinin gözlənilən azalması nəticəsində büdcə gəlirlərinin və xərclərinin mümkün azalmasını və beləliklə, iqtisadi artımın davamlılığı üçün təhdidlərin artma ehtimalını əks etdirir.
4. Azərbaycanda büdcənin vergi daxilolmalarının iqtisadi artıma mənfi təsiri statistik baxımdan əhəmiyyətli deyil. Bu nəticə qəbul edilmiş nəzəri müddəalarla ziddiyyət təşkil edir və ölkəmizdə aparılan vergi siyasətinin iqtisadi artıma məhdudlaşdırıcı təsirinin az olduğunu deməyə əsas verir.
5. Neft qiymətlərinin artımı ilə Azərbaycanın qeyri-neft ÜDM-i arasında müsbət əlaqə aşkarlanmışdır. Bu fakt ölkəmizin qeyri-neft sektorunun da dünya bazarlarında formalaşan neft qiymətlərinə həssaslığını təsdiqləyir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Azərbaycanda neft hasilatının gözlənilən azalması yaradılmış maliyyə ehtiyatlarına

baxmayaraq, yaxın onilliklərdə dövlət xərclərinin azalması ilə nəticələnə bilər. Belə şəraitdə fiskal siyasət dəyişənləri ilə iqtisadi artım arasındakı əlaqənin öyrənilməsi məhdud fiskal resursların optimal istifadəsi üçün mühüm əhəmiyyət kəsb edir. Tədqiqatın nəticələri təbii resurslarla zəngin ölkələrdə fiskal siyasətin iqtisadi artıma təsirinə dair nəzəri baza üçün empirik nümunələr təqdim edir.

Bu nəticələr Azərbaycanda və digər neft əsaslı iqtisadiyyatlarda iqtisadi artımın stimullaşdırılması üçün tətbiq edilən fiskal siyasətin və qaydaların təkmilləşdirilməsində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəticələri Azərbaycnda və xarici ölkələrdə keçirilmiş konfranslarda təqdim edilmiş, tədqiqatın əsas elmi yenilikləri nüfuzlu yerli və xarici jurnallarda nəşr edilmiş məqalələrdə əks etdirilmişdir.

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi və texnoloji elmlər" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi və strukturu**. Dissertasiya giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla tərtib edilmişdir. Dissertasya 227297 işarədən ibarətdir (o cümlədən, Giriş - 11919, I fəsil – 66466, II fəsil – 57074, III fəsil – 60138, Nəticə - 5498, ədəbiyyat siyahısı – 24437).

## Dissertasiya işinin strukturu

**Giriş**
**I Fəsil. Fiskal siyasət və iqtisadi artım arasında əlaqələrin tədqiqinin nəzəri və metodoloji əsasları**
1.1. İqtisadiyyatın fiskal tənzimlənməsinin nəzəri əsasları
1.2. Fiskal siyasət və iqtisadi artım arasında əlaqələrə nəzəri yanaşmalar
1.2.1. Fiskal dəyişənlərlə iqtisadi artım arasında xətti əlaqələr
1.2.2. Büdcə xərclərinin iqtisadi artıma qeyri-xətti təsirlərinin xüsusiyyətləri
**II Fəsil. Azərbaycanda fiskal siyasət və iqtisadi artım arasında əlaqənin tədqiqi**
2.1. Vergi siyasətinin iqtiadi artıma təsir kontekstində təhlili
2.2. Büdcə xərclərinin strukturu və dinamikasının təhlili
2.3. Fiskal siyasət və iqtisadi artım arasında əlaqənin ekonometrik qiymətləndirilməsi
**III Fəsil. Müasir şəraitdə dövlətin fiskal siyasətinin təkmilləşdirilməsi istiqamətləri**
3.1. Təbii ehtiyatlarla zəngin ölkələrdə müasir fiskal siyasət meylləri
3.2. Azərbaycanda fiskal siyasətin iqtisadi artım kontekstində inkişaf istiqamətləri
3.3. Fiskal siyasətin yaşıl iqtisadi artıma dəstək perspektivləri

**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat siyahısı**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Fiskal siyasət və iqtisadi artım arasında əlaqələrin tədqiqinin nəzəri və metodoloji əsasları"** adlı birinci fəslində tənzimləyici fiskal alətlərin əsas xüsusiyyətləri, bu alətlərlə iqtisadi artım arasında xətti və qeyri-xətti əlaqələrə təsir edən amillərin tədqiqi aparılmışdır.

*İqtisadi ədəbiyyatda fiskal siyasətin iqtisadi artıma müsbət təsirinə və onlar arasında əlaqənin əhəmiyyətli olmadığına dair çoxsaylı empirik sübutlar mövcuddur. Bəzi tədqiqatlarda isə dövlət xərcləri ilə iqtisadi artım arasında mənfi əlaqə tapılmışdı*[1]

Bir sıra tədqiqatlarda isə Keynsçi baxışı təsdiqləyən və fiskal alətlərlə iqtisadi artım arasında nəzəri gözləntilərə uyğun gələn (iqtisadi artım və dövlət xərcləri arasında müsbət, vergi gəlirləri ilə iqtisadi artım arasında isə mənfi) sübutlar tapılmışdır[2].

Ədəbiyyat icmalı göstərir ki, dövlət xərclərinin komponentlərinin də iqtisadi artıma təsirinə dair yekdil fikirlər yoxdur: dövlətin kapital xərcləri ilə iqtisadi artım arasında müsbət əlaqəni[3], inkişaf etməkdə olan ölkələrdə isə dövlətin kapital xərcləri ilə iqtisadi artım arasında mənfi əlaqəni təsdiqləyən tədqiqatlar var[4]. Bəzi araşdırmalar göstərir ki, ekonometrik modellərə dövlət borcu ilə bağlı dəyişənlər daxil edildikdə, dövlətin kapital xərclərinin iqtisadi artıma uzunmüddətli

---

[1] Seyfullalı, C.İ. Fiskal siyasətin tənzimləyici funksiyasına nəzəri baxışların təhlili // - Bakı: İqtisadi İslahatlar Elmi-Analitik Jurnal, -2023. №3 (8), - s.88-99

[2] Rivero, S., and Guerrero, J.J. The economic effects of fiscal policy: Further evidence for Spain. [Electronic resource] / The Quarterly Review of Economics and Finance. Volume 86, November 2022: 305-313 https://doi.org/10.1016/j.qref.2022.08.002

[3] Easterly, W., Rebelo, S. Fiscal policy and economic growth: An empirical investigation. [Electronic resource] / Journal of Monetary Economics, Volume 32, Issue 3, December 1993: 417-458 https://doi.org/10.1016/0304-3932(93)90025-B

[4] Devarajan, S., Swaroop, V., Zou, H. The composition of public expenditure and economic growth. [Electronic resource] Journal of Monetary Economics. Volume 37, Issue 2, April 1996, Pages 313-344. https://doi.org/10.1016/S0304-3932(96)90039-2

müsbət təsiri müşahidə olunmur[5]. İnkişaf etməkdə olan ölkələrin dövlət borcları üzrə faiz dərəcələri inkişaf etmiş ölkələrlə müqayisədə adətən yüksək oldğu üçün yüksək faizli borcla maliyyələşdirilən və kifayət qədər məhsuldar olmayan investisiya xərcləri həmin ölkələrdə iqtisadiyyata mənfi təsir göstərə bilər. Bəzi tədqiqatlar dövlət xərclərinin özəl investisiyaları məhdudlaşdırmasını əks etdirən “sıxışdırma effekti” (crowding out) üçün də dəlillər təqdim etmişdir[6].

Fiskal siyasətin iqtisadi artıma tənzimləyici təsirlərinin tədqiqinə yönələn nəzəri və empirik tədqiqatların nəticələri aşağıdakı kimi ümumiləşdirilə bilər[7]:

- fiskal dəyişənlər və iqtisadi artım arasındakı əlaqəyə dair Keynsçi baxış aksioma kimi qəbul edilə bilməz;
- büdcənin kapital xərclərinin iqtisadi artımı stimullaşdırmaq baxımından effektivliyi inkişaf etməkdə olan ölkələrdə zəif institusionallaşma səbəbindən sual altındadır;
- büdcə xərclərinin bütün növlərinin (o cümlədən, investisiya) maliyyələşmə mənbələri və istifadə edilən borcların faiz dərəcələri, büdcənin kifayət qədər məhsuldarlığa malik olmayan investisiya və digər xərcləri iqtisadi artıma fayda əvəzinə zərər verə bilər;
- fiskal multiplikator büdcə xərclərinin artmasına və azalmasına asimmetrik reaksiya göstərə bilər. Bu multiplikator büdcə xərclərinin artması ilə müqayisədə büdcə xərclərinin azalmasına daha həssasdır;
- yüksək dövlət xərcləri və borclanma sonrakı illərdə daha daraldıcı fiskal siyasətə ehtiyac yaradaraq dövlət xərclərinin azalmasını

---

[5] Gupta, S., Clements, B., Baldacci, E., and Mulas-Granados, C. Fiscal policy, expenditure composition, and growth in low-income countries. [Electronic resource] Journal of International Money and Finance, April 2005, 24: 441-463 http://dx.doi.org/10.1016/j.jimonfin.2005.01.004

[6] Easterly, W., Rebelo, S. Fiscal policy and economic growth: An empirical investigation [Electronic resource] / Journal of Monetary Economics, -1993, 32( 3),- p. 417-458. https://doi.org/10.1016/0304-3932(93)90025-B

[7] Seyfullalı, C.İ. Fiskal siyasətin tənzimləyici funksiyasına nəzəri baxışların təhlili // - Bakı: İqtisadi İslahatlar Elmi-Analitik Jurnal, -2023. №3 (8), - s.88-99

zəruri edə bilər;

- inkişaf etməkdə olan ölkələrin fiskal siyasəti adətən protsiklik xarakter daşıyır.[8] İqtisadi tsiklin artım mərhələsində protsiklik fiskal siyasətin səbəbi zəif institusionallaşma və qısamüddətli məqsədlərə yönəlmə ola bilər. İqtisadi daralma mərhələsində protsiklik fiskal siyasətin səbəbi isə böhran dövrlərində iqtisadiyyatı stimullaşdırmaq üçün dövlət xərclərinin artırılmasına yönələn resursların çatışmazlığı ola bilər. İnkişaf etməkdə olan ölkələrdə yerli maliyyə bazarlarının inkişaf etməməsi və beynəlxalq maliyyə bazarlarına çıxışın zəif olması bu vəziyyəti şərtləndirən əsas səbəblər ola bilər. Azərbaycan Respublikası Dövlət Neft Fondunda (bundan sonra - ARDNF) belə şəraitdə istifadə etmək üçün əhəmiyyətli ehtiyatların olduğunu nəzərə alsaq, bu halın Azərbaycan üçün o qədər də aktual olmadığını deyə bilərik.
- resursla zəngin ölkələrdə resurs gəlirləri iqtisadi artıma dövlət xərclərindən daha çox təkan verə bilər. Bununla belə, dövlət xərcləri və resurs gəlirləri ümumən müsbət korrelyasiyaya malik olduğundan, resurs gəlirlərinin ekonometrik modellərdən kənarlaşdırılması onların müsbət təsirinin də dövlət xərclərinə aid edilməsi ilə nəticələnə bilər.
- büdcə xərcləri ilə iqtisadi artım arasındakı əlaqənin istiqaməti qısa və uzunmüddətli dövrdə fərqli ola bilər. Bu əlaqələrin qısa və uzunmüddətli dövr üçün ayrıca qiymətləndirilməsi problemin daha yaxşı tədqiqinə kömək edə bilər.
- Keynsçi baxışa zidd olaraq, praktikada vergi daxilolmaları ilə iqtisadiyyat arasında müsbət əlaqə mövcud ola bilər. Vergi gəlirlərinin azalması ilə iqtisadi böhran dövrünün kəsişməsi fiskal cavab (ya avtomatik stabilizatorlar, ya da diskresion fiskal siyasət vasitəsilə) kimi şərh edilə bilər. Bu hal “qarşılıqlı səbəb-nəticə əlaqəsi”nə nümunə kimi göstərilə bilər.

---

[8] Culha, A.A. Asymmetric government expenditure: A comparison of advanced and developing countries [Electronic resource] /- London: Journal of Economic Policy Reform. -2017, -p.164-183. https://doi.org/10.1080/17487870.2017.1374863

*Büdcə xərclərinin ÜDM-də payı, dövlət borcları və idarəetmənin keyfiyyəti fiskal siyasətin iqtisadi artımın stimullaşdırılması üçün səmərəliyinə əhəmiyyətli təsir göstərir.*

İqtisad elmində dövlətin iqtisadiyyatda çəkisi (büdcə xərclərinin ÜDM-ə nisbəti) göstəricisinin fiskal siyasətin iqtisadi artıma təsiri baxımından optimal həddinin mövcudluğuna dair mülahizələr də var[9]. Fiskal siyasət və iqtisadi artım arasında əlaqə qeyri-xətti formada və qrafiki olaraq çevrilmiş U kimi təsvir edilir. Belə qeyri-xətti əlaqələrə dair nəzəri-empirik müddəaların təhlili aşağıdakı nəticələri çıxarmağa imkan verir[10]:

- büdcə xərclərinin ÜDM-də payının (dövlətin iqtisadiyyatda çəkisi) optimal həddi inkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş ölkələrlə müqayisədə daha böyükdür – bu hal inkişaf etməkdə olan ölkələrdə dövlətin istehsal və sosial infrastruktur investisiyalarına daha çox ehtiyacın olması ilə izah edilə bilər.
- dövlətin iqtisadiyyatda çəkisi optimal hədd səviyyəsindən böyük olduqda büdcə xərclərinin mənfi təsiri inkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş ölkələrlə müqayisədə daha böyük olur;
- dövlətin iqtisadiyyatda çəkisi optimal səviyyədən yüksək olduqda, iqtisadi idarəetmənin keyfiyyəti həlledici amilə çevrilir;
- təbii ehtiyatlarla zənginliyin fiskal siyasət və iqtisadi artım arasındakı əlaqəyə təsiri ölkənin institusionallaşma səviyyəsindən asılıdır. Oturuşmuş institutları olan inkişaf etmiş ölkələr təbii resurslardan daha səmərəli istifadə edə bilirlər.

Dissertasiyanın **“Azərbaycanda fiskal siyasət və iqtisadi artım arasında əlaqənin tədqiqi”** adlanan ikinci fəslində vergi siyasətinin, büdcənin gəlir və xərclərinin dinamikasının, büdcə xərcləri ilə iqtisadi artım arasında əlaqələrin tədqiqi aparılmışdır.

---

[9] Barro, R. Government Spending in a Simple Model of Endogenous Growth. [Electronic resource] / Journal of Political Economy, 1990, 98, p.103-125 https://www.jstor.org/stable/2937633

[10] Seyfullalı, C.İ. Büdcə xərclərinin iqtisad artıma qeyri-xətti təsiri // Gənc tədqiqatçıların VIII Respublika elmi konfransının materialları, - Bakı: - 14 mart, - 2025, - s.360-362

*Azərbaycanda sahibkarlığı dəstəkləyən vergi islahatlarının mütəmadi olaraq aparılmasına baxmayaraq, milli iqtisadiyyatın strukturunda qeyri-neft sektorunun dayanıqlı üstünlüyünə nail olunmamışdır*[11].

Aparılan tədqiqat göstərir ki, ölkədə artan büdcə xərclərinin gəlirlə təminatının böyük hissəsi 20 ilə yaxın müddət ərzində ARDNF-in transferləri hesabına təmin edilir, vergi gəlirlərinin büdcədə payı isə yalnız 2022-ci ildə 60%-lik həddi keçə bilmişdir[12]. Belə vəziyyət büdcə gəlirlərinin hələ də neft gəlirlərindən asılılığının böyük olaraq qaldığını, qeyri-neft sektorunun artan dövlət xərclərinin qarşılanması üçün yetərli imkanlara malik olmadığını göstərir.




**Qrafik 1. Vergi siyasətinin fiskal nəticələri və ÜDM (mln AZN, cari qiymətlərlə)[13]**

1 saylı qrafikə baxdıqda, Vaqner qanununun (iqtisadi artım gücləndikcə büdcə gəlirləri artır və bu da öz növbəsində büdcə xərclərinin artmasına imkan verir) Azərbaycanda özünü doğrultduğu mülahizəsi irəli sürülə bilər.

---

[11] Seyfullalı, C.İ. Azərbaycanda vergi siyasətinin iqtisadi artıma dəstək kontekstində tədqiqi // - Bakı: Azərbaycanın vergi jurnalı, -2023. №1 (144), - s. 31-42

[12] Azərbaycan Respublikası dövlət büdcəsinin icrası haqqında Qanunlar – www.e-qanun.az

[13] Azərbaycan Respubikasının Dövlət Statistika Komitəsinin (ARDSK) məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

2000-2023-cü illər ərzində nominal ölçüdə ÜDM-in təxminən 28 dəfə, büdcə gəlirlərinin 43 dəfə, vergi gəlirlərinin isə 38 dəfə artması çox böyük nailiyyət kimi qəbul edilə bilər. Lakin bu artımın əsasən neft hasilatının və neft qiymətlərinin yüksəlməsi hesabına formalaşması qeyd edilən artımda vergi siyasətinin rolunun o qədər də böyük olmadığını deməyə əsas verir.

Azərbaycanda büdcənin neft sektorundan daxilolmaları qeyri-neft sektorundan daxilolmalara nisbətən daha dəyişkəndir. Buna görə də, qeyri-neft sektorunun inkişafı üçün stimulları yarada biləcək vergi güzəştlərinə daha çox yer verilməsi, güzəştlərin hazırlanması, tətbiqi, istifadəsi və bu güzəştlərin nəticələri barədə göstəriciləri əks etdirən rəqəmsal məlumat bazasının yaradılması təklif olunur.

Qeyd edilən artım templərində inflyasiyanın və digər amillərin təsirlərinin də nəzərə alınması üçün nisbi göstəricilərin – büdcə və vergi gəlirlərinin ÜDM-ə nisbətinin dinamikasına nəzər yetirək (Qrafik 2).




**Qrafik 2. Büdcə gəlrilərinin və vergi daxilomalarının ÜDM-də xüsusi çəkisi (%)[14]**

Büdcə gəlirlərinin ÜDM-ə nisbətinin ən yüksək səviyyələrinin 2013-2015-ci və pandemiyanın ən kəskin dövrü olan 2020-ci ilə təsadüf etməsi bir sıra mülahizələrin irəli sürülməsinə əsas verir.

[14] ARDSK-in məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

2013-cü ildə ARDNF-dən dövlət büdcəsinə transferlərin ən yüksək səviyyələrindən biri – 11,5 milyard manat qeydə alınmışdır. Məhz bu göstərici həmin ildə büdcə gəlirlərinin ÜDM-ə nisbətinin 33,5%-ə çatmasını şərtləndirmişdir. 2014-2017-ci illərdə ARDNF-dən transferlərin azalması (2014-cü ildə 9,3 milyarda manat, 2017-ci ildə 6,5 milyard manat) büdcə gəlirlərinin də azalması ilə müşayiət olunmuşdur.

Büdcə gəlirlərinin ÜDM-ə nisbətinin növbəti pik həddi (34%) isə pandemiya ilinə - 2020-ci ilə təsadüf edir və bu artım yenə də ARDNF-nin rekord transferi ilə - 12,2 milyard manatla bağlıdır. Əgər büdcənin vergi gəlirlərində neft sektoru müəssisələrinin payının da kifayət qədər böyük olduğunu nəzərə alsaq, onda deyə bilərik ki, Azərbaycanın büdcə gəlirlərində neft amilinin payı hələ də həlledici xarakter daşıyır.

3 saylı qrafikdə büdcənin vergi gəlirlərində daxili vergilər və idxalda tutulan vergi və rüsumların payı təqdim edilmişdir.




**Qrafik 3. Büdcənin vergi gəlirlərində daxili vergilərin və idxalda tutulan vergi və rüsumların payı (%-lə)[15]**

Bu qrafikdən göründüyü kimi, 2000-2015-ci illərdə idxal vergiləri və rüsumlarının payının orta göstəricisi 20% ətrafında idisə, 2016-2023-cü illərdə bu göstərici 30% ətrafında olmuşdur.

[15] ARDSK-in məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Büdcənin idxalda tutulan ƏDV və daxili əməliyyatlardan tutulan ƏDV üzrə daxilolmalarının dinamikası da ölkəmizdə yerli istehsalın artan daxili tələbatın ödənilməsində uğurlarının az olduğunu deməyə əsas verir (4 saylı Qrafik).




**Qrafik 4. Daxili və idxal əməliyyatları üzrə əlavə dəyər vergisi (milyon manatla)[16]**

İdxalda tutulan ƏDV-nin həcmi 2017-ci ilə qədər daxili əməliyyatlar üzrə tutulan ƏDV-dən az olmuşdur. Lakin həmin ildən sonra idxal ƏDV-si üzrə vergi dərəcəsində və vergitutma bazasında dəyişikliklərin (qanunvericilikdə) olmadığı şəraitdə sürətlə artmağa başlamışdır. Eyni mənzərə daxili əməliyyatlar üzrə də müşahidə olunur.

Belə mənzərə daxili tələbatın artması və devalvasiyadan sonrakı illərdə baş verən sürətli inflyasiya prosesləri, eləcə də vergidən yayınma hallarının azalması ilə izah oluna bilər. Lakin idxalda tutulan ƏDV-nin daxili əməliyyatlar üzrə ƏDV-dən daha sürətlə artması və bu vergi növü üzrə daxilolmalarda daha böyük paya sahib olması yerli istehsalın inkişafı üçün səmərəli dəstəkləyici tədbirlərə ehtiyac olduğunu göstərir.

[16] Azərbaycan Respublikasının dövlət büdcəsinin icrası haqqında Qanunları – www.e-qanun.az

Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün Vergi Məcəlləsində çoxsaylı vergi güzəştləri tətbiq edilir. Əgər bu güzəştlərin təkamülünə diqqət yetirsək, burada güzəştlərin ünvanlılığının və yerli istehsalın dəstəklənməsi meyllərinin gücləndiyini müşahidə edə bilərik. Lakin kifayət qədər uzun müddət ərzində tətbiq edilməsinə baxmayaraq, vergi güzəştlərinin nəticəliliyi ilə bağlı müsbət fikirləri söyləmək üçün tutarlı arqumentlər hələ ki, yoxdur. Son illərdə Azərbaycan Respublikasının Vergi Məcəlləsində edilən dəyişikliklər ölkənin qeyri-neft sektorunun inkişafı üçün əvvəlki illərlə müqayisədə daha güclü stimullar təqdim edir. Amma bu stimulların sahibkarların maraqlarını nə dərəcədə nəzərə alması və ticari sektorların cəlbediciliyinin gücləndirilməsi üçün yetərliliyi məsələsi tam aydın deyil.

Vergi güzəştləri vergidən yayınma imkanlarının əlçatan və asan olduğu hallarda öz əhəmiyyətini və təsir gücünü itirə bilər. Buna görə də, vergi siyasətində dəstəkləyici tədbirlərin vergi inzibatçılığının gücləndirilməsi və vergidən yayınma hallarının mümkün qədər məhdudlaşdırılması prosesi ilə paralel aparılması tövsiyə olunur.

*Azərbaycanda büdcənin iqtisadi fəaliyyət xərcləri ilə iqtisadi artım arasında müsbət korrelyasiya mövcuddur.*

Büdcə gəlirləri 2007-ci ildən 2023-cü ilə qədərki dövrdə yalnız 2 il ərzində (2011 və 2013) büdcə xərclərini üstələmişdir. Büdcə gəlirləri və xərclərinin orta illik artımı dövr ərzində müvafiq olaraq 14% və 13% olmuşdur. Gəlirlər və xərclər üzrə ən yüksək illik artımlar 2008-ci ildə (müvafiq olaraq 86% və 71%), 2011-ci ildə (müvafiq olaraq 38% və 31%) və 2018-ci ildə (müvafiq olaraq 36% və 29%) baş verib. 2007-2023-cü illər ərzində büdcə gəlirlərinin ötən illə müqayisədə azalması 3 dəfə baş verib: 2009-cu ildə (-4%), 2014-cü ildə (-6%) və 2017-ci ildə (-6%). Büdcə xərclərində isə 2009 (-3%) və 2017-ci illərdə (-1%) azalma müşahidə olunub. Dövlət gəlirləri və xərclərinin azalması 2009 və 2017-ci illərdə üst-üstə düşmüş, 2014-2015-ci illərdə isə büdcə gəlirləri azalsa da, dövlət xərcləri azalmamışdır. Büdcə gəlirlərinin, xərclərinin və kəsrinin (profisitinin) dinamikasını Qrafik 5-də müşahidə etmək olar.




**Qrafik 5. Büdcə gəlirləri, xərcləri və kəsrinin dinamikası (mln. AZN)**[17]

6 saylı Qrafikdən göründüyü kimi, dövr ərzində ən yüksək çəki "İqtisadi fəaliyyət" kateqoriyasına aiddir. Bu kateqoriya əsasən büdcənin kapital xərclərini təmsil edir və nəqliyyat və rabitə, tikinti, mineral ehtiyatlar, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və dövlət əsaslı digər infrastruktur xərcləri əhatə edir.




**Qrafik 6. Büdcə xərclərinin 2007-2023-cü illər üzrə kumulyativ strukturu**[18]

---

[17] ARDSK-in məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Aparılan hesablamalar (1 saylı Cədvəl) göstərir ki, Azərbaycanda dövlət xərcləri (0.56) və büdcənin iqtisadi fəaliyyət xərcləri (0.54) ilə iqtisadi artım arasında müsbət korrelyasiya var. Lakin dövlət xərclərinə və iqtisadi artıma təsir edə biləcək bir çox başqa amillər var və təhlil prosesində bu dəyişənlərin də nəzərə alınması daha yaxşı əsaslandırılmış nəticələri təqdim edə bilər.

**Cədvəl 1.**
**Büdcə xərclərinin kateqoriyaları və ÜDM-in artımı arasında korrelyasiya (2007-2023)**[19]

| Göstəricilər | Büdcə xərcləri və iqtisadi artım arasında korrelyasiya əmsalı |
|---|---|
| Ümumi dövlət xidmətləri xərcləri | 0.02 |
| Müdafiə xərcləri | 0.44 |
| Məhkəmə və hüquq-mühafizə orqanlarının saxlanması xərcləri | -0.05 |
| Təhsil xərcləri | -0.05 |
| Səhiyyə xərcləri | -0.42 |
| Sosial müdafiə xərcləri | -0.05 |
| İqtisadi fəaliyyət xərcləri | 0.54 |
| Ümumi büdcə xərcləri | 0.56 |
| Büdcə kəsri | 0.41 |

Hesablamalar dövlətin təhsil və səhiyyə xərcləri ilə iqtisadi artım arasında çox zəif və mənfi korrelyasiyanın (-0.05 və -0.42) olduğunu göstərir. Buna baxmayaraq, 2018-2023-cü illərdə dövlətin iqtisadi fəaliyyət xərclərinin ümumi büdcə xərclərində payı azaldığı halda, təhsil və səhiyyə xərclərinin payı artmışdır. Belə vəziyyəti təhsil və səhiyyə xərclərinin nəticələrinin uzunmüddəti dövrdə təzahür olunması ilə izah etmək olar.

*Azərbaycanda qısamüddətli dövrdə dövlət xərcləri ilə iqtisadi artım arasında mənfi əlaqə mövcuddur və belə əlaqə müəyyən dərəcədə "qarşılıqlı səbəb-nəticə" əlaqəsi ilə izah oluna bilər.*[20]

---

[18] ARDSK-in məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

[19] ARDSK-in məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır

Büdcə xərcləri ilə qeyri-neft sektoruda iqtisadi artım arasında əlaqələrin ekonometrik təhlili ARDLBT metodu ilə aparılmışdır. 2 saylı cədvəldə modelin asılı, müstəqil və nəzarət dəyişənləri, eləcə də modelin nəticələrini əks etdirən göstəricilər təqdim edilir. Dəyişənlərin hamısı modelə loqarifmik ifadədə daxil edilmişdir.

**Cədvəl 2.**

**Qısamüddətli dövr üçün qiymətləndirmənin nəticələri[21]**

| *Asılı dəyişən: real qeyri-neft ÜDM* | |
|---|---|
| $CointEq_{t-1}$ | –0.58*** (0.08) |
| $\Delta$*Real qeyri-neft* $ÜDM_{t-1}$ | –0.41*** (0.10) |
| $\Delta$*Real qeyri-neft* $ÜDM_{t-2}$ | 0.50*** (0.10) |
| $\Delta$*Real qeyri-neft* $ÜDM_{t-3}$ | –0.37*** (0.09) |
| $\Delta$*Real dövlət xərci* | –0.03*** (0.08) |
| $\Delta$*Real dövlət* $xərci_{t-1}$ | –0.34*** (0.11) |
| $\Delta$*Real dövlət* $xərci_{t-2}$ | –0.29*** (0.10) |
| $\Delta$*Real dövlət* $xərci_{t-3}$ | –0.23*** (0.08) |
| $\Delta$*Neft qiyməti* | –0.03 (0.56) |
| $\Delta$*Neft* $qiyməti_{t-1}$ | –0.12* (–0.06) |
| $R^2$ (*determinasiya əmsalı*) | 0.81 |
| Korrektə edilmiş $R^2$ | 0.79 |
| Müşahidələrin sayı | 70 |

*Qeyd:* ***, **, və * 1%, 5%, və 10%-lik səviyyədə statistik əhəmiyyətlilik,mötərizələrdə isə standard xəta göstərilmişdir.

Nəticələr göstərir ki, qısamüddətli dövrdə büdcə xərcləri ilə real qeyri-neft ÜDM arasında mənfi əlaqə mövcuddur. Azərbaycan üzrə aparılmış başqa bir tədqiqatda [22] da qısamüddətli dövrdə dövlət xərcləri ilə qeyri-neft iqtisadi artımı arasında mənfi əlaqə (statistik baxımdan əhəmiyyətsiz olsa da) aşkar edilmişdir. Büdcə xərcləri ilə

---

[20] Kalbiyev, Y.A., Seyfullalı, J.İ. Fiscal policy and economic growth in resource-rich country: Empirical evidence from Azerbaijan // - Sumı: Public and Municipal Finance, - 2024. №13 (1), - s.83-94, http://dx.doi.org/10.21511/pmf.13(1).2024.07

[21] ARDSK-in məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır

[22] Aliyev, K., Dehning, B., & Nadirov, O. Modelling the Impact of Fiscal Policy on Non-Oil GDP in a Resource Rich Country: Evidence from Azerbaijan. [Electronic resource] / Acta Universitatis Agriculturae et Silviculturae Mendelianae Brunensis, - 2016. №64(6), 1869-1878 http://dx.doi.org/10.11118/actaun201664061869

ÜDM arasında qısamüddətli mənfi əlaqə müəyyən ölçüdə "qarşılıqlı səbəb-nəticə əlaqəsi" ilə izah edilə bilər.

ÜDM-in azaldığı dövrlərdə Keynsçi nəzəriyyəyə uyğun olaraq ya avtomatik stabilizatorların təsiri ilə və ya ixtiyari genişləndirici fiskal siyasətin tətbiqi ilə dövlət xərcləri artır. Bu səbəbdən riyazi modellər bu iki dəyişən arasında qısa müddətdə mənfi əlaqə aşkarlayır. Bir sıra tədqiqatlarda[23]Azərbaycanda dövlət xərcləri ilə iqtisadi artım arasında qısamüddətli dövrdə qarşılıqlı səbəb-nəticə əlaqəsi tapılmışdır[24]. Bu tapıntılar da büdcə xərcləri ilə ÜDM arasında qısamüddətli mənfi əlaqənin "qarşılıqlı səbəb-nəticə əlaqəsi" ilə izah edilə biləcəyini göstərir.

*Uzunmüddətli perspektivdə Azərbaycanda büdcə xərcləri ilə iqtisadi artım arasında müsbət əlaqə mövcuddur*[25]**.**

3 saylı cədvəldə müstəqil və nəzarət dəyişənlərinin ümumi və qeyri-neft ÜDM-ə təsirinin ekonometrik qiymətləndirilməsinin nəticələri əks etdirilmişdir.

Azərbaycanda uzunmüddətli dövrdə neft qiymətləri və büdcə xərcləri ilə ümumi ÜDM arasında da statistik əhəmiyyətli (müvafiq olaraq 1% və 5%-lik səviyyədə) müsbət əlaqə var. Ölkəmizin ümumi ÜDM-i ilə vergi gəlirləri arasında isə statistik əhəmiyyətli əlaqə aşkarlanmamışdır (p-value>0.1). Vergi gəlirlərinin ümumi ÜDM-ə təsirinin azlığı isə ÜDM-də payı yüksək olan neft gəlirlərinin əsasən neft hasilatının həcmi və neftin dünya bazarında formalaşan qiymətlərindən asılı olması ilə izah oluna bilər.

---

[23] Aliyev, K., Dehning, B., & Nadirov, O. Modelling the Impact of Fiscal Policy on Non-Oil GDP in a Resource Rich Country: Evidence from Azerbaijan. [Electronic resource] / Acta Universitatis Agriculturae et Silviculturae Mendelianae Brunensis, 2016. 64(6), 1869-1878 http://dx.doi.org/10.11118/actaun201664061869

[24] Abbasov, J. A., & Aliyev, K. Testing Wagner's Law and Keynesian Hypothesis in Selected Post Soviet Countries. [Electronic resource] / Acta Universitatis Agriculturae et Silviculturae Mendelianae Brunensis,2018. 66(5), 1227-1237 https://doi.org/10.11118/actaun201866051227

[25] Kalbiyev, Y.A., Seyfullalı, J.İ. Fiscal policy and economic growth in resource-rich country: Empirical evidence from Azerbaijan // - Sumı: Public and Municipal Finance, - 2024. №13 (1), - s.83-94, http://dx.doi.org/10.21511/pmf.13(1).2024.07

**Cədvəl 3.**
**Uzunmüddətli dövrdə büdcə xərcləri, vergi gəlirləri və neftin qiymətinin ÜDM-ə təsiri**[26]

| Modelin dəyişənləri | Asılı dəyişən - ümumi real ÜDM | Asılı dəyişən - qeyri-neft real ÜDM |
|---|---|---|
| **Panel A: modelin nəticələri** | | |
| Constant | 4.085*** (0,37) | 1.113 (0.81) |
| *LRGOVEXP (real dövlət xərcləri)* | 0.377** (–0.05) | 0.587*** (0.16) |
| *LRTAXREV (real vergi gəlirləri)* | 0.048 (0.05) | –0.139 (0.139) |
| *LOILPRICE (neftin qiyməti)* | 0.313*** (0.04) | 0.380*** (0.12) |
| **Panel B: modelin keyfiyyət göstəriciləri** | | |
| $R^2$ (*determinasiya əmsalı*) | 0.91 | 0.92 |
| Korrektə edilmiş $R^2$ | 0.90 | 0.90 |
| Müşahidələrin sayı | 70 | 70 |
| Serial avtokorrelyasiya (LM testi) | $X^2_{SC}$ = 0.36 (0.83) | $X^2_{SC}$ = 2.59 (0.27) |
| Heteroskedastiklik (Breuş- Paqan testi) | $X^2_{SC}$ = 17.15 (0.13) | $X^2_{SC}$ = 19.55 (0.11) |

*Qeyd: ***, **, və * 1%, 5%, and 10%-lik səviyyədə statistik əhəmiyyətliliyi,* Mötərizə işində yazılan göstərici A panelində standart xətanı, B panelində isə p-dəyərini əks etdirir.

Asılı dəyişəni qeyri-neft sektorunun real ÜDM-i olan modelin nəticələri göstərir ki, Azərbaycanda neft qiymətləri və büdcə xərcləri qeyri-neft sektorunda ÜDM-ə statistik əhəmiyyətli (1%-lik səviyyədə) müsbət təsir göstərir.

Büdcə xərcləri ilə qeyri-neft ÜDM-i arasında müsbət əlaqə Keynsçi baxışa uyğun gəlir. Azərbaycan üzrə araşdırma aparılan digər bir tədqiqatda[27] uzunmüddətli dövrdə dövlət xərclərindən iqtisadi artıma yönələn bir istiqamətli səbəb-nəticə əlaqəsinin tapılması aparılan reqressiya təhlilində aşkar edilən dövlət xərcləri ilə iqtisadi artım arasında uzunmüddətli müsbət əlaqənin qarşılıqlı səbəb-nəticə əlaqəsi ilə bağlı olmadığına əminlik yaradır.

---

[26] ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır

[27] Abbasov, J. A., & Aliyev, K. Testing Wagner's Law and Keynesian Hypothesis in Selected Post Soviet Countries. [Electronic resource] / Acta Universitatis Agriculturae et Silviculturae Mendelianae Brunensis,2018. 66(5), 1227-1237 https://doi.org/10.11118/actaun201866051227

Modelin digər nəticəsi büdcənin vergi gəlirləri ilə qeyri-neft sektorunda real ÜDM arasında statistik əhəmiyyətli əlaqənin olmadığını təsdiqləyir. Belə vəziyyət vergi daxilolmalarında neft sektorunun payının kifayət qədər yüksək olması ilə izah oluna bilər. Qeyd edilən mülahizə, ölkəmizin neft gəlirlərinin azalma ehtimalının yüksək olması fonunda büdcə xərclərinin gələcək artımının maliyyələşdirilməsi mənbələri barədə düşünməyə vadar edir və ölkəmizin qeyri-neft sektorunun, xüsusilə onun ticari sahələrinin inkişafının həyati əhəmiyyət kəsb etməsini bir daha sübut edir.

*Azərbaycanda büdcə xərcləri ilə iqtisadi artım arasında əlaqə qeyri-xətti xarakter daşımır*[28].

**Cədvəl 4.**

**Azərbaycanda BARs əyrisinin mövcudluğu**[29]

| **Panel A: modelin nəticələri** | |
|---|---|
| Dəyişənlər | Nəticələr |
| Asılı dəyişən: real ÜDM-in artım tempi | |
| Constant | –0.048* (0.26) |
| *OILPRCG (neftin qiyməti)* | 0.418*** (0.10) |
| *GOVEXPTOGDP (büdcə xərclərinin ÜDM-ə nisbəti)* | 0.591 (1.76) |
| *GOVEXPTOGDP*$^2$ *(büdcə xərclərinin ÜDM-ə nisbətinin kvadratı)* | –2.055 (–3.07) |
| *CAPINV (Büdcənin iqtisadi fəaliyyət xərcləri)* | 0.283** (0.11) |
| **Panel B: modelin keyfiyyət göstəriciləri** | |
| $R^2$ (*determinasiya əmsalı*) | 0.70 |
| Korrektə edilmiş $R^2$ | 0.61 |
| Müşahidlərin sayı | 70 |
| Serial korrelyasiya (LM testi) | $X^2_{SC}$ = 3.46 (0.18) |
| Heteroskedastiklik (Breuş- Paqan testi) | $X^2_{SC}$ = 16.57 (0.15) |

Qeyd: ***, **, və * 1%, 5%, and 10%-lik səviyyədə statistic əhəmiyyətliliyi əks etdirir. Mötərizə içində yazılan göstərici A panelində standart xətanı, B panelində isə p-dəyəri əks etdirir.

ARDLBT modelindən istifadə etməklə Azərbaycanda dövlət xərcləri ilə iqtisadi artım arasında qeyri-xətti əlaqənin (BARS əyrisi)

[28] Kalbiyev, Y.A., Seyfullalı, J.İ. Fiscal policy and economic growth in resource-rich country: Empirical evidence from Azerbaijan // - Sumı: Public and Municipal Finance, - 2024. №13 (1), - s.83-94, http://dx.doi.org/10.21511/pmf.13(1).2024.07

[29] ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır

mövcudluğu sınaqdan keçirilmiş və nəticələr 4 saylı cədvəldə əks etdirilmişdir.

Bu modelin nəticələrində Azərbaycanda dövlət xərcləri ilə iqtisadi artım arasında tərs U-şəkilli əlaqə üçün statistik əhəmiyyətli sübut aşkar edilməmişdir. Buradan belə qənaətə gəlmək olar ki, ölkəmzidə büdcə xərclərinin ÜDM-ə nisbətinin optimal həddi barədə mülahizələrin irəli sürülməsi hələ ki mümkün deyil.

Baxdığımız modellərin nəticələri belə bir arqumenti irəli sürməyə imkan verir: Azərbaycanda büdcə xərclərinin artımı uzunmüddətli dövrdə qeyri-neft sektorunda real ÜDM-ə müsbət təsir göstərdiyi üçün büdcə xərclərinin artımı qeyri-neft sektorunun inkişafına müsbət impulslar verə bilər. Lakin bu hada "sıxışdırma effekti" adətən aşağı səmərəli olan dövlət sektorunun genişlənməsinə və özəl investisiyaların məhdudlaşmasına gətirməklə iqtisadiyyatın büdcə xərclərinin vergi mənbələrinin daralmasına gətirə bilər. Ölkəmizdə qeyri-neft ticari sektorların zəif inkişafı neft gəlirlərinin azalacağı təqdirdə artan büdcə xərclərinin maliyyələşdirilməsi üçün probemlərin yaranmasına gətirə bilər.

Dissertasiyanın **"Müasir şəraitdə dövlətin fiskal siyasətinin təkmilləşdirilməsi istiqamətləri"** adlı üçüncü fəslində ixracı əsasən təbii resursların satışı ilə bağlı olan ölkələrdə fiskal siyasət təcrübəsi araşdırılmış, Azərbaycanda tətbiq edilən fiskal siyasətin təkmilləşdirilməsi üzrə tövsiyələr verilmiş, fiskal siyasətin yaşıl iqtisadi artıma təsiri məsələlərinə yer verilmişdir.

*Azərbaycan da daxil olmaqla, təbii resurs ixrac edən ölkələrdə fiskal siyasətin dəyişkənliyi digər ölkələrlə müqayisədə daha yüksəkdir. Fiskal qaydalar təbii resurs ixrac edən ölkələrdə fiskal siyasəti sabitləşdirmək üçün effektiv alət ola bilər*[30].

Apardığımız hesablamalar və bu istiqamətdə aparılmış tədqiqatların nəticələrinin ümumiləşdirilməsi onu deməyə əsas verir ki, təbii resursdan asılı iqtisadiyyatlarda fiskal siyasət daha volatil xarakterə malik olur. Nəticələr göstərir ki, Azərbaycan da daxil olmaqla, neftə

---

[30] Seyfullalı, J.I. Fiscal policy chalanges in the resource-rich countries // - Bakı: İqtisadi İslahatlar Elmi-Analitik Jurnal, -2024. № 1 (10), s. 1-16

əsaslanan iqtisadiyyatı olan ölkələrin dövlət gəlirlərinin ÜDM-ə, dövlət xərclərinin ÜDM-ə və büdcə kəsrinin ÜDM-ə nisbəti göstəriciləri digər ölkələrlə müqayisədə daha volatildir. Fiskal siyasətin volatilliyi və protsiklik fiskal siyasət nəticəsində iqtisadi tsikllərin kəskinləşməsi iqtisadi sabitliyin pozulması və dövlət borcunun artması kimi müxtəlif problemlərlə nəticələnə bilər. Bu problemlərin aradan qaldırılması üçün fiskal qaydaların tətbiqi, iqtisadi idarəetmənin institutlaşma səviyyəsinin yüksəldilməsi təklif olunur.

*Aşağı borclanma Azərbaycanda "qeyri-resurs ilkin balans qaydası" və "qızıl qayda"nın kombinasiyası ilə büdcənin iqtisadi fəaliyyət xərcləri üçün daha çox yer ayırmağa imkan verə bilər. İqtisadi fəaliyyət xərclərinin planlaşdırılmasında məhsuldarlıq meyarına və qeyri-neft sektorunun investisiya cəlbediciliyini artıran layihələrə üstünlük verilməsi təklif olunur.*[31]

Hazırda Azərbaycanın fiskal qaydası 2 göstəriciyə əsaslanır: qeyri-neft büdcə kəsrinin qeyri-neft ÜDM-ə nisbəti və dövlət borcunun ÜDM-ə nisbəti.

Birinci qayda "qeyri-resurs ilkin balans qaydası"na uyğun gəlir. Bu qaydanın üstünlüklərinə asan monitorinq və qeyri-resurs gəlirlərinin təşviqi imkanları, əsas çatışmazlığına isə neft gəlirlərindən istifadə etməklə qeyri-neft sektorunun inkişafı üçün dövlət investisiyalarının məhdudlaşması aid edilə bilər. Azərbaycanda son 20 ildə qeyri-neft sektoru üçün nəqliyyat, təhsil və səhiyyə infrastrukturunun yaradılmasına əhəmiyyətli miqdarda investisiyalar yönədilmiş və bu xərclərin maliyyələşdirilməsində neft gəlirləri böyük rol oynamışdır. Azərbaycanda qeyri-neft büdcə kəsrinin qeyri-neft ÜDM-ə nisbətini müqayisə etmək üçün əlçatan informasiya bazasının yoxluğu bu istiqamətdə tutarlı arqumentlərin ədə edilməsini məhdudlaşdırmışdır. Borclanma ilə bağlı fiskal qayda üzrə təhlil aparmaq üçün yetərli informasiya bazası mövcuddur.

---

[31] Seyfullalı, J.I. Fiscal policy chalanges in the resource-rich countries // - Bakı: İqtisadi İslahatlar Elmi-Analitik Jurnal, -2024. № 1 (10), s. 1-16

Aparılan təhlillər göstərmişdir ki, Azərbaycanın borclanma səviyyəsi müqayisə aparılan ölkələrin əksər hissəsinə nisbətdə çox aşağıdır. Bu faktları digər empirik tədqiqatların nəticələri və apardığımızı korrelyasiya təhlilinin nəticələri ilə (dövlətin kapitalı xərcləri ilə iqtisadi artım arasında müsbət əlaqə) birləşdirsək, qeyri-neft büdcə kəsrinin qeyri-neft ÜDM-ə nisbətinin tavan göstəricisini müəyyən etmək üçün "qeyri-resurs ilkin balans qaydası" və "qızıl qayda"nın kombinasiyasının tətbiq olunmasını təklif edə bilərik. Bu iki qaydanın kombinasiyası dövlətin kapital xərclərinin daha da artırılmasına imkan verə bilər.

İqtisadi fəaliyyət xərclərinin planlaşdırılmasında məhsuldarlıq meyarına və qeyri-neft sektorunun investisiya cəlbediciliyini artıran layihələrə üstünlük verilməsi, vergi və gömrük güzəştləri, dövlət xərclərinin növləri üzrə daha şəffaf və ətraflı məlumat bazasının hazırlanması tövsiyə olunur.

*Azərbaycanda fiskal siyasətin yaşıl iqtisadi artıma təsiri istiqamətində təkmilləşdirilməsi üçün əsaslandırılmış təkliflər irəli sürülmüşdür.*[32]

Elektrik enerjisi ilə işləyən avtomobillərin idxalı və satışının aksiz vergisindən, gömrük rüsumlarından və əlavə dəyər vergisindən azad edilməsi, istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 sm$^3$ çox olmayan hibrid avtomobillərin və elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışının ƏDV-dən və gömrük rüusmlarından azad edilməsi, sənaye parkları kimi fəaliyyət göstərən və bərpa olunan enerji mənbələrindən istifadə etməklə elektrik enerjisi istehsal edən vergi ödəyicilərinin 10 il müddətinə mənfəət, gəlir, əmlak və torpaq vergilərindən azad edilməsi, həmin vergi ödəyiciləri üçün istehsal məqsədi ilə idxal edilən avadanlıqların ƏDV və rüsumlardan azad edilməsi, bərpa edilən enerji istehsalçılarının klaster şirkəti statusu ala biləcəyi təqdirdə mənfəət vergisindən 7 il müddətinə

[32] Seyfullalı, J.I. Research on the Realationship Between Fiscal Policy and Green Economy // - Bakı: Proceedings of Energy Economic Research Centre, Enerji İqtisadiyyatı Mərkzinin Xəbərləri, - 2024. №18 (05), -s.95-101

azad edilməsi Azərbaycanda yaşıl iqtisadiyyatı dəstəkəyən fiskal siyasət tədbirlərindəndir.

İşğaldan azad edilmiş ərazilərin yaşıl zona elan edilməsi, bu ərazilərdə külək, su və günəş enerjisindən istifadə məsələlərinə göstərilən dövlət dəstəyi yəqin ki, ən qısa müddətdə öz nəticəsini verəcəkdir. Büdcənin investisiya xərclərinin planlaşdırılması və investisiya layihələrinin maliyyələşdirilməsi, eləcə də dövlət satınalmaları zamanı ekoloji təmiz texnologiyalara və məhsullara, enerjiyə qənaət edən texnologiyalara və mallara üstünlük verilməsi bu sahənin inkişafına böyük töhfələr verə bilər.

Alternativ enerji mənbələrindən istifadə edilməklə istehsal edilən enerjinin maya dəyərinin yüksək olması və investisiya cəlbediciliyinin aşağı olması bu sahənin inkişafına mane olan əsas məsələlər kimi qəbul edilir. Bu maneənin aradan qaldırılması üçün həmin sahələrdə fəaliyyət göstərən müəssisələr üzrə aşağıdakı dəstəkləyici tədbirlərin həyata keçirilməsi təklif olunur:

- bərpa olunan enerji istehsalçıları üçün subsidiya mexanizminin hazırlanması;
- həmin istehsalçıların investisiya tələbatlarının ödənilməsinə yönələn kreditlərin verilməsi üçün zəmanət mexanizmlərinin hazırlanması;
- bərpa edilən enerji istehsalçılarının qiymətli kağızlarının alışının stimullaşdırılması.

## Nəticə

1. Bir sıra empirik tədqiqatların nəticələri Keyns hipotezinin fərqli vəziyyətlərdə fərqli təzahürlərinin olduğunu, bəzi hallarda isə ümumiyyətlə işləmədiyini göstərmişdir. Belə vəziyyətin yaranması isə əhalinin istehlaka və yığıma meylliliyinə təsir göstərən sosial-mədəni amillərdə, dövlət tənzimlənməsinin keyfiyyətində, iqtisadiyyatın strukturunda və institusional quruluşda olan fərqlərlə əlaqələndirilmişdir.

2. İqtisadi ədəbiyyatda dövlət xərclərinin ÜDM-ə nisbəti və iqtisadi artım arasında əlaqələrin tərs çevrilmiş U şəkili olması barədə mülahizələr irəli sürülmüş, Keyns hipotezinin dövlət xərclərinin

müəyyən hədləri daxilində işlədiyini, həmin həddin aşılmasından sonra isə dövlət xərclərinin iqtisadi artıma əks təsir göstərməsi barədə empirik sübutlar təqdim olunmuşdur.

3. Bır sıra tədqiqatlarda dövlət borcu və idarəetmənin keyfiyyəti kimi amillərin fiskal siyasətin uğuru üçün həlledici olması, fiskal siyasət və iqtisadi artım arasındakı əlaqələrin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə, eləcə də təbii resurs ixracatçıları olan ölkələrdə fərqli təbiətə malik olması iddia olunur.

4. Təhlillər göstərir ki, iqtisadiyyatın şaxələndirilməsi və büdcə gəlirlərinin neft sektorundan asılılığının azaldıması məqsədinə hələ də nail olunmayıb. Vergi və gömrük güzəştlərindən istifadə səviyyəsi, onların nəticəliyi barədə detallı və əlçatan informasiya bazasının yaradılması büdcənin vergi güzəşti formasında alınmamış gəlirlərinin iqtisadi proseslərə təsirinin qiymətləndirilməsi üçün böyük əhəmiyyət kəsb edə və bu sahədə qərar qəbul edən şəxslərə tutarlı arqumentlərin təqdim edilməsi üçün faydalı ola bilər.

5. Azərbaycanda ümumi büdcə xərcləri və onun iqtisadi fəaliyyət xərcləri ilə iqtisadi artım arasında əlaqələrin təhlili bu göstəricilər arasında müsbət korrelyasiyanın mövcud olduğunu göstərir.

6. Reqressiya təhlili göstrir ki, qısamüddətli dövrdə büdcə xərcləri ilə iqtisadi artım arasında mənfi (tərs) əlaqə var. Bir sıra tədqiqatlarda Azərbaycanda iqtisadi artım və büdcə xərcləri arasında "qarşılıqlı səbəb-nəticə əlaqəsi"nin mövcud olduğunu iddia edən arqumentlərin mövcudluğunu da nəzərə alsaq, belə tərs əlaqəni "qarşılıqlı səbəb-nəticə" effektinə aid edə bilərik.

7. Büdcənin vergi gəlirlərinin iqtisadi artıma gözlənilən mənfi təsiri statistik baxımdan əhəmiyyətli deyil.

8. Uzunmüddətli dövrdə büdcə xərcləri ilə iqtisadi artım arasında statistik əhəmiyyətli müsbət əlaqə mövcuddur. Azərbaycan üzrə aparılan digər tədqiqatlarda uzun müddətli dövr üçün büdcə xərclərindən iqtisadi artıma yönələn bir istiqamətli səbəb-nəticə əlaqəsi tapılmışdır. Qeyd edilənlər "büdcə xərcləri uzunmüddətli dövrdə iqtisadi artıma təkan verir" mülahizəsini təsdiqləməyə əsas verir.

9. Ölkəmizdə büdcə xərcləri ilə iqtisadi artım arasında əlaqə qeyri-xətti xarakter daşımır və dövlətin iqtisadiyyatda çəkisinin optimal həddinin mövcudluğu barədə sübutların yoxluğu bu istiqamətdə əlavə araşdırmaların aparılmasını zəruri edir.

10. Neft gəlirlərinə əsaslanan oxşar iqtisadiyyatlarda fiskal siyasətlərin daha dəyişkən və qeyri-sabit olduğu müəyyən edilmişdir. Halbuki, fiskal siyasətin nisbi sabitliyi ölkədə iqtisadi uğurların əldə edilməsi üçün mühüm amillərdən biri hesab olunur.

11. Azərbaycanda dövlət borcunun çox aşağı səviyyədə olması, digər empirik tədqiqatların və apardığımız təhlilin nəticələri qeyri-neft büdcə kəsrinin qeyri-neft ÜDM-ə nisbətinin tavan göstəricisini müəyyən etmək üçün "qeyri-resurs ilkin balans qaydası" və "qızıl qayda"nın kombinasiyasının tətbiq olunması imkanlarının mövcudluğunu göstərir. Bu iki qaydanın kombinasiyası dövlətin kapital xərclərinin daha da artırılmasına imkan verə bilər.

12. Büdcə xərclərinin, xüsusilə onun iqtisadi fəaliyyət xərclərinin planlaşdırılmasında məhsuldarlıq meyarının tam nəzərə alınması, bu layihələrin reallaşdırılması və nəticələrinin ölçülməsi üçün əhatəli monitorinq mexanizminin tətbiqi tövsiyə olunur.

13. Alternativ enerji mənbələrindən enerji istehsalının dəstəklənməsi üçün fiskal tədbirlərin həyata keçirilməsi təklif olunur: alternativ enerji istehsalçıları üçün subsidiya mexanizminin hazırlanması, onların güzəştli kreditlərlə və dövlət zəmanəti mexanizmləri ilə təmin edilməsi, sığorta və pensiya fondlarının həmin müəssisələrin maliyyələşdirilməsində iştirakının stimullaşdırılması və s.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilən nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**

1. Seyfullalı, C.İ. Fiskal siyasət və iqtisadi artım: Nəzəri və empirik tədqiqatların icmalı // V İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransı, ISCEMR - Bakı: - 22-25 iyun, - 2023, Turan SAM jurnalının ISCEMR -2023 xüsusi buraxılışı, - s.293-302

2. Seyfullalı, C.İ. Azərbaycanda vergi siyasətinin iqtisadi artıma dəstək kontekstində tədqiqi // - Bakı: Azərbaycanın vergi jurnalı, - 2023. №1 (144), - s. 31-42
3. Seyfullalı, C.İ. Fiskal siyasətin tənzimləyici funksiyasına nəzəri baxışların təhlili // - Bakı: İqtisadi İslahatlar Elmi-Analitik Jurnal, -2023. №3 (8), - s. 88-99
4. Seyfullalı J.I., Analysis of the tax policy impact on economic growth in Azerbaijan // 7th International Conference on Economics and Finance, - Istanbul: - 5-6 oktyabr, -2023, - s.99-107
5. Seyfullalı, J.I. Tax Revenue and Economic Growth in Resouce-Rich country: Empirical evidence from Azerbaijan // - Bakı: Journal of Economic Sciences: Theory and Practice, - 2023. №80 (2), s. 47-59
6. Seyfullalı, C.İ. Fiskal siyasət və yaşıl iqtisadiyyat arasında əlaqələrin tədqiqi // "Qlobal istiləşmə və iqlim dəyişikliyi" mövzusunda Respublika Elmi Konfransının Toplusu, - Bakı: -18 fevral, - 2024, - s.14-19
7. Seyfullalı, J.I. Fiscal policy chalanges in the resource-rich countries // - Bakı: İqtisadi İslahatlar Elmi-Analitik Jurnal, -2024. № 1 (10), s. 1-16
8. Kalbiyev, Y.A., Seyfullalı, J.İ. Fiscal policy and economic growth in resource-rich country: Empirical evidence from Azerbaijan // - Sumı: Public and Municipal Finance, - 2024. №13 (1), - s.83-94 http://dx.doi.org/10.21511/pmf.13(1).2024.07
9. Seyfullalı, J.I. Research on the Relationship Between Fiscal Policy and Green Economy // - Bakı: Proceedings of Energy Economic Research Centre, Enerji İqtisadiyyatı Mərkəzinin Xəbərləri, - 2024. №18 (05), -s.95-101
10. Seyfullalı, C.İ. Büdcə xərclərinin iqtisad artıma qeyri-xətti təsiri // Gənc tədqiqatçıların VIII Respublika elmi konfransının materialları, - Bakı: - 14 mart, - 2025, - s.360-362

CSeyfullalı

Dissertasiyanın müdafiəsi 14 may 2025-ci il tarixində saat $16^{00}$-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 10 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.04.2025

Kağızın formatı: A5

Həcm: 46219 işarə.

Tiraj: 50